# KƏRİMOV BƏŞİR BƏYLƏR OĞLU



2 fevral 1976-cı ildə Füzuli rayonunun Qacar kəndində dünyaya göz açmışdır. 1983-cü ildə kənd orta məktəbinin birinci sinfinə getmiş, 1991-ci ildə səkkizinci sinfi bitirərək, Füzuli şəhərindəki texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. Qarabağ müharibəsi başlananda doğma kəndinin müdafiəsi üçün daim əsgərlərlə birlikdə postlarda olmuş, ərzaq və patron daşınmasında onlara köməklik göstərmişdir. 1993-cü ilin aprel ayında Qacar kəndi işğal olunan zaman erməni yaraqlılarına qarşı igidliklə vuruşmuşdur. Qacar kəndi işğal olunduqdan sonra ailəsi ilə birlikdə Dilağarda kəndində məskunlaşmışdır. 1993-cü ildə Füzuli rayonunun işğalından sonra isə ailəsi ilə birlikdə İmişli rayonunun Yalavac kəndinə köçərək burada məskunlaşmışlar. 1994-cü ildə Beyləqan rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır. Hərbi xidmətinə Pirəküşküldəki hissədə başlamışdır. Gəncə şəhərində ”N” saylı hərbi hissədə qulluq etmiş, 1995-ci il mart ayının 13-17-də dövlətçiliyimizin müdafiəsinə qalxmış və 17 martda silahlı dəstənin zərərsizləşdirilməsi zamanı qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Kərimov Bəşir Bəylər oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.